MÜSAVAT
N 166 (8776) 17 sentyabr 2025

# Azərbaycan milli musiqisinin dünəni, bu günü və gələcəyi...

## Gənc ifaçılar ölkəmizi dünyada necə təmsil edə bilirlər?



Bu il 18 sentyabr daha da əlamətdardır. Çünki 2025-ci ildə Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi tamam olur. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla yubiley münasibətilə ölkədə müxtəlif tədbirlər, konsertlər, elmi konfranslar və festival proqramları keçirilir.

Hər kəsə məlumdur ki, Üzeyir Hacıbəyli təkcə Azərbaycan deyil, bütün Şərq mədəniyyəti üçün inqilabi şəxsiyyət idi. 1908-ci ildə səhnələşdirilən "Leyli və Məcnun" operası ilə o, Şərqdə ilk operanın əsasını qoydu. Bu əsərin səhnəyə qoyulması ilə Azərbaycan opera sənəti doğuldu və böyük bir məktəbin təməli atıldı. Ardınca "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm", "Harun və Leyla" kimi operalar Azərbaycan milli musiqi tarixində silinməz iz buraxdı.

Üzeyir Hacıbəyli yaradıcılığının zirvəsi isə "Koroğlu" operasıdır. Bu əsər Azərbaycan milli musiqi tarixində deyil, dünya opera mədəniyyətində də xüsusi yer tutur. "Koroğlu" həm milli qəhrəmanlıq dastanının musiqi dilində ifadəsi, həm də xalqın azadlıq və mübarizə ruhunun təcəssümüdür.

Üzeyir bəyin adı həm də musiqili komediyalarla bağlıdır. "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" əsərləri Azərbaycan musiqi teatrının qızıl səhifələridir. Xüsusilə "Arşın mal alan" dünya şöhrəti qazanaraq 70-dən çox dilə tərcümə edilib, 100-dən çox teatrın səhnəsində göstərilib, dəfələrlə ekranlaşdırılıb.

Onu da xatırladaq ki, 1920-ci illərdə "Arşın mal alan" əsəri ermənilər tərəfindən Amerikada erməni dilində səhnələşdirilir və əsərin ermənilərə məxsus olduğu bildirilir. Sonradan Sovet hakimiyyətinin məsələyə qarışması, əsərin müəllifi Üzeyir bəy Hacıbəylinin özünün müdaxiləsi nəticəsində "Arşın mal alan" əsərinin Azərbaycana məxsus olduğu və müəllifinin Üzeyir bəy olduğu təsdiq edilir.

Üzeyir bəyin "Çırpınırdı Qara dəniz" mahnısı isə bu gün bütün Türk dünyasında məşhurdur. Xatırladaq ki, sözləri Əhməd Cavadın olan bu mahnı Qafqaz İslam Ordusunun Bakıya gəlişi və Nuru Paşanın rəhbərliyi ilə Azərbaycanın xilası dövründə ifa olunub. Mənbələrdə göstərilir ki, əsər ilk dəfə 1918-ci ilin sentyabrında, Qafqaz İslam Ordusu Bakını erməni-bolşevik işğalından azad etdikdən sonra səsləndirilib. Bu, həm qardaşlıq rəmzi, həm də milli azadlıq ruhunun musiqi ifadəsi idi. Bu gün də "Çırpınırdın, Qara dəniz" Azərbaycan-Türkiyə dostluğunun ən güclü simvol mahnılarından biri sayılır, həm rəsmi tədbirlərdə, həm də konsertlərdə səslənir.

Eyni zamanda o, həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm də Sovet Azərbaycanının dövlət himnlərinin müəllifidir. Bu gün Azərbaycanın Dövlət Himni Üzeyir bəyin musiqisi əsasında səslənir.

18 sentyabrda Azərbaycanın başqa bir görkəmli bəstəkarı - Müslüm Maqomayev də dünyaya göz açıb. Bu iki şəxsiyyətin doğum tarixlərinin üst-üstə düşməsi Azərbaycan musiqisinin taleyində əlamətdar hadisə kimi qəbul edilir.

Onların münasibəti, sadəcə, sənət dostluğu deyildi. Həm də qohumluq əlaqələri vardı, belə ki, onlar bacanaq idilər. Üzeyir bəyin həyat yoldaşı Yevgeniya xanımla Müslüm Maqomayevin həyat yoldaşı Həlimə xanım bacı idi. Bu yaxınlıq musiqi dünyasında da öz əksini tapmışdı.

Üzeyir Hacıbəylinin qoyduğu möhkəm bünövrə bu gün Azərbaycan musiqisinin dünya miqyasında tanınmasına geniş yol açıb. Onun əsərləri Azərbaycanı qlobal mədəniyyət xəritəsinə çıxarıb. Bu ənənə müasir dövrdə də davam etdirilir və həm klassik musiqi, həm də muğam, xalq musiqisi, caz və hətta yeni musiqi janrlarında möhtəşəm uğurlar əldə olunur.

Məsələn, Azərbaycanda Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı hər il sentyabr ayında keçirilməklə Bakını əsl musiqi mərkəzinə çevirir. Burada dünya səviyyəli dirijorlar, orkestr kollektivləri və solistlər iştirak edir, Azərbaycan musiqiçiləri isə öz peşəkarlıqlarını beynəlxalq auditoriyaya təqdim etmək imkanı qazanırlar.

Bundan başqa, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Muğam Mərkəzinin layihələri, "Muğam müsabiqəsi" və digər tədbirlər Azərbaycan milli musiqisinin dünyaya tanıdılmasında mühüm rol oynayır.

Məlum olduğu kimi, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsi" siyahısına daxil edilib və bu gün xüsusi diqqətlə qorunur. Muğam evləri, ustad dərsləri və beynəlxalq konfranslar vasitəsilə bu sənət həm Azərbaycanda, həm də beynəlxalq miqyasda təbliğ olunur. Gənc xanəndələrin yetişməsi, onların müxtəlif ölkələrdə festivallarda çıxış etməsi muğamın müasir dövrdə də canlı və aktual olduğunu göstərir.

Azərbaycan caz musiqisi də dünya miqyasında xüsusi mövqe qazanıb. Vaqif Mustafazadə, Əzizə Mustafazadə, Rain Sultanov, Şahin Növrəsli, İsfar Sarabski kimi musiqiçilər bu sahənin inkişafına böyük töhfələr veriblər. Azərbaycan cazı muğamla sintez olunaraq unikal bir janr yaradıb və ölkəni beynəlxalq caz səhnəsində fərqləndirib.

Bu gün Azərbaycan gənc musiqiçiləri dünyanın müxtəlif ölkələrində keçirilən nüfuzlu müsabiqələrdə mükafatlar qazanır. Onların arasında pianoçular, skripkaçılar, vokalçılar və dirijorlar var. Bu uğurlar bir tərəfdən Azərbaycanın musiqi təhsilinin yüksək səviyyəsindən, digər tərəfdən isə gənclərin istedadından xəbər verir.

Eyni zamanda onlar Azərbaycan musiqi məktəbinin gücünü bütün dünyaya nümayiş etdirirlər.